# Təbriz maarifçiliyi və pedaqoji mətbuatımız

Müəllif **Elnarə Məmmədova**
Pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmlər doktoru hazırlığı üzrə dissertantı.
E-mail: elnare_mammadova@yahoo.com
https://orcid.org/0000-0002-8472-7703

Annotasiya Məqalədə Azərbaycan pedaqoji fikrinin formalaşmasında öz yeri olan Təbriz maarifçiliyindən, Cənubi Azərbaycan təhsilində aparıcı qüvvə olan Təbriz mühiti və onun pedaqoji fikrimizin inkişafındakı rolundan bəhs edilir. Yaxın və Orta Şərqin ən qədim şəhərlərindən olan Təbrizin təhsil tarixi də qədimdir. Təsadüfi deyildir ki, Təbriz mədrəsəsi 1280-ci ildə yaradılmışdır. XX əsrin I yarısında Şimali Azərbaycan təhsilinin Təbrizə müsbət təsiri olmuşdur. Azərbaycan pedaqoqlarının yaradıcılıqlarında və fəaliyyətində, Azərbaycan pedaqoji mətbuatında, xüsusən «Azərbaycan məktəbi» jurnalında Təbriz maarifçiliyi problemlərinə toxunulmuş, Təbriz təhsili, məktəb, mədrəsələri haqqında məlumatlar verilmiş, pedaqoji fikrimizin inkişafına dair tədqiqatlarda Təbriz maarifçiliyinə də müraciət olunmuşdur.

Açar sözlər Təhsil tarixi, pedaqoji fikir, təhsilin milliləşdirilməsi.

DOI: http://dx.doi.org/10.29228/edu.37

**Məqaləyə istinad:** Məmmədova E. (2019) *Təbriz maarifçiliyi və pedaqoji mətbuatımız.* «Azərbaycan məktəbi». № 3 (688), səh. 141–149.

**Məqalə tarixçəsi:** Göndərilib — 04.05.2019; Qəbul edilib — 08.07.2019

# Tabriz enlightenment and Azerbaijani pedagogical press

Author **Elnara Mammadova**
Doctor of Philosophy in Pedagogy, Doctor of Science at the Azerbaijan State Pedagogical University. E-mail: elnare_mammadova@yahoo.com
https://orcid.org/0000-0002-8472-7703

Abstract The article discusses Tabriz educational enlightenment that influenced on Azerbaijani pedagogical concept and also the Tabriz environment, the leading force in South Azerbaijan's education, which plays an important role in the formation and development of Azerbaijani pedagogical thinking. The establishment of Tabriz madrassa in 1280 is not a coincidence. In the first half of the 20th century, Northern Azerbaijan had a positive impact on the education of Tabriz. In the period of Shah, the enlightenment process in Tabriz was in a miserable state. In the works and activities of Azerbaijani pedagogues, as well as, in the pedagogical press, especially in "Azerbaijan Journal of Educational Studies", it was emphasized the problems in Tabriz education and shined the information on their educational system, schools and madrassas.

Keywords Educational history, pedagogical thoughts, nationalization of education.

DOI: http://dx.doi.org/10.29228/edu.37

**To cite this article:** Mammadova E. (2019) *Tabriz enlightenment and Azerbaijani pedagogical press.* Azerbaijan Journal of Educational Studies. Vol. 688, Issue III, pp. 141–149.

**Article history:** Received — 04.05.2019; Accepted — 08.07.2019

Azərbaycan pedaqoji fikrinin inkişafı və formalaşmasında onunla qırılmaz tellərlə bağlı olan Cənubi Azərbaycan, Təbriz maarifçiliyi, ədəbi, elmi, pedaqoji irsinin tədqiqi və öyrənilməsi baxımından əhəmiyyətlidir. Tədqiqatlar göstərir ki, dünya təhsil sivilizasiyasında Yaxın və Orta Şərqin sıx təmasda olduğu Təbriz şəhəri, onun məktəb, mədrəsə, təhsil sahəsindəki ənənələrinin xüsusi yeri vardır. Təbriz təhsilinin mütərəqqi ənənələri müxtəlif səviyyələrdə dünya sivilizasiyasında da gözə çarpmaqdadır. Məlumdur ki, Təbriz şəhəri Şərqdə istedadlı şairlər, alimlər, rəssamlar, nəqqaşlar, musiqiçilər diyarı kimi bəşəriyyətə az töhfələr bəxş etməmişdir. Təbriz şəhərinin adı tarixi mənbələrdə həmişə Bağdad, Şam, Herat, Buxara, Səmərqənd, Naxçıvan, Gəncə və başqa şəhərlərlə qoşa çəkilmişdir. Xətib Təbrizi, Qətran Təbrizi, Şəms Təbrizi, Saib Təbrizi, Əssar Təbrizi, Qövsi Təbrizi və b. sənətkarlar Təbrizi özlərinə ədəbi ləqəb götürməklə doğma şəhərlərini bütün dünyaya tanıtmışlar. XIV əsrdə Təbrizdə yaradılmış darülfünun Şərqdə elmin, təhsilin, pedaqoji fikrin inkişafında mühüm rol oynamışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində Cənubi Azərbaycanda yaşamış Hacı Zeynalabdin Marağayi (1837-1940), Mirzə Əbdürrəhim Talıbov (1855-1910), Mirzə Həsən Rüşdüyyə (1851-1944) məktəb təhsili və pedaqoji nəzəriyyələrin inkişafında kifayət qədər işlər görmüşdülər.

XIX əsrin II yarısında Güney Qafqazda maarif və milli təhsil sahəsində başlanmış intibah Cənubi Azərbaycanın, o cümlədən Təbrizin maarifçi ziyalıları və ictimai xadimlərini də hərəkətə gətirmişdir (F.Rüstəmov). Bütün bunlar isə, gec-tez öz ifadəsini, ilk növbədə, pedaqoji mətbuatda tapmışdır. Bu da təbiidir. Çünki təhsilin, nəzəriyyənin və praktikanın problemlərinə tam və ya qismən həsr olunmuş qəzet, jurnal, dövri və dövri olmayan kolleksiyaların cəminin hərəkətverici qüvvəsi olan pedaqoji mətbuat Cənubi Azərbaycan kimi əlverişli coğrafi mövqeyə malik olan ölkənin bədii əsərlərində öz əksini tapan pedaqoji fikir və nailiyyətlərin dünya mədəniyyətinə qatılmasına rəvac vermişdir. Bu cəhətdən ölkəmizin pedaqoji mətbuatında xüsusi mövqeyi olan «Azərbaycan məktəbi», «Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnallarının da danılmaz xidmətləri olmuşdur. «Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalı «Azərbaycan məktəbi» ilə yanaşı klassiklərimizin öz oxucularına tanıdılmasında əvəzsiz işlər görmüşdür. Azərbaycan pedaqoji jurnalları heç bir fərq qoymadan Yaxın və Orta Şərqdə yaşamış Azərbaycan ədibləri və maarifçilərinin yaradıcılıq yolunu daima izləmişdir.

XX əsrin əvvəllərində İran təhsilində baş verən yeniliklər Cənubi Azərbaycanda da təhsilin vəziyyətinə öz təsirini göstərsə də, «Azərbaycan məktəbi» jurnalında «Cənubi Azərbaycan maarifi» adlı məqalədə göstərildiyi kimi, «İstər Rza şah hakimiyyəti dövrünə (1924-1941), istərsə də sonrakı milli azadlıq hərəkatının qələbəsinə qədər olan zaman kəsiyinə gəlincə, göstərmək lazımdır ki, Cənubi Azərbaycan maarifi acınacaqlı bir vəziyyətdə olmuşdur. Xalqın böyük əksəriyyəti

tamamilə savadsız idi. İran hakimiyyəti Cənubi Azərbaycan maarif işlərinə çox cüzi vəsait buraxırdı» [Ağamalı K.1967, №3].

1941-1945-ci illərdə Cənubi Azərbaycanda baş verən milli-azadlıq hərəkatı nəticəsində 1945-ci il dekabrın 12-də Azərbaycan Milli hökuməti quruldu. Milli hökumət maarif işlərinə xüsusi qayğı göstərdi, ilk növbədə məktəblər milliləşdirildi. Maarif müəssisələri üçün əlverişli şərait yaradıldı. Təkcə Təbriz şəhərində 1945-1946-cı tədris ilində 179 ibtidai, 59 orta məktəb var idi. Burada 32627 şagird oxuyurdu ki, bunların 26726 nəfəri oğlan, 5901 nəfəri isə qız idi. Perspektivdə 1946-1947-ci dərs ili üçün maarif şəbəkəsinin bir neçə dəfə genişləndirilməsi nəzərdə tutulurdu. Milli Hökumət dövründə – 1946-cı ilin iyununda Təbrizdə darülfünun yaradıldı. «Azərbaycan» qəzeti Təbriz darülfünunun açılışını böyük hadisə – «21 Azər» gününə bərabər tuturdu. Darülfünunda kənd təsərrüfatı və pedaqogika fakültələri vardı. Pedaqogika fakültəsində fizika, riyaziyyat, kimya, təbiət, dil, ədəbiyyat, tarix, coğrafiya şöbələri yaradılmışdı. Sentyabrın 12-də rəsmi olaraq fəaliyyətə başlayan darülfünuna Şimali Azərbaycan ziyalıları da kömək etmişlər. Təbrizdəki M.Ə.Tərbiyət adına dövlət kitabxanası və qiraətxanasının işlərinin nizama salınması üçün tədbirlər görülürdü. Azərbaycan Xalq Maarif Nazirliyi yanında xüsusi şöbə yaradıldı. I-IV siniflər üçün dərsliklər çap olundu. Bu dərsliklərdə vətən məhəbbəti çox qabarıq şəkildə verilmişdi.

«Azərbaycan məktəbi»ndə 1950-60-cı illərdə Cənubi Azərbaycan təhsilinə maraq daha da gücləndi. Təbrizdən Bakıya mühacirlik edənlərin də məqalələri müxtəlif qəzet və jurnallarda çap olunmağa başladı və bunlar maraqla qarşılandı. Şah rejiminin ağır illərində mütərəqqi ideyalar irəli sürən maarifçilər mətbuat aləmində öz sözlərini deməyə imkan tapdılar. Maarifçilik fəaliyyəti dünya təcrübəsinə də arxalanırdı. Çünki bu hərəkatın tarixi onlara da yaxşı məlum idi. Onlar bilirdilər ki, Fransa inqilabını (1789-1794) fransız maarifçiləri hazırlamışdır. Maarifçilik epoxası cəmiyyətdə şəxsiyyətin mənəvi və intellektual yetişməsi naminə ağıla, şüura, zəkaya üstünlük verirdi. Almaniyada XVIII əsr «Kant əsri» xatırlanırdı. Fransanın görkəmli elm və mədəniyyət xadimlərindən D.Didro, Volter, Jan Jak Russo, Monteskyö, Holbax kimi şəxsiyyətlərin maarifçilik hərəkatına verdiyi töhfələr, Didronun başçılıq etdiyi «Ensiklopediya» jurnalındakı maarifçilik ideyaları yada salınırdı. Maarifçilik epoxasının ictimai-fəlsəfi-estetik fikrin Almaniyada Höte, Baumqarten, Vinkelman, Lessinq, İtaliyada Cüzeppe Pariki, İspaniyada Feyxo-i-Monteneqro, Rusiyada Lomonosov, Radişşevin xidmətləri bütün dünyada məşhur idi. Cənublular Azərbaycan maarifçiliyinin tarixinə də bələd idilər. Azərbaycanda maarifçilik ideyalarının təbliği, xalqın əsrlər boyunca davam edən geriliyinin aradan qaldırılması istiqamətində işlər aparılıb. A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, M.T.Sidqi, A.Şaiq, S.M.Qənizadə, R.Əfəndiyev, S.S.Axundov, N.Nərimanovun bu sahədəki fədakarlığı onlara da məlum idi.

Zamanın tələbinə müvafiq olaraq təhsil-tərbiyə nəzəriyyəsi və pedaqoji fikrin inkişafına dair ideyalara Cənubi Azərbaycanın mütərəqqi ziyalıları da qoşulmuşdu. Şah rejiminin ağır illərində M.Tərbiyət, Səhəng, Əli Təbrizi, Həbib Sahir, Səməd Behrəngi, Əhməd Kəsrəvi qəzet və jurnallarda maarifçilik məsələlərini təbliğ edir, necə deyərlər, xalqı dünyanın mütərəqqi ideyalarını dərk etməyə səsləyirdilər. İranda, xüsusən Təbrizdə yaşayan ziyalılar heç zaman təhsilə laqeyd yanaşmırdılar. Təbrizdəki ideyaları izləyən Azərbaycan ziyalıları pedaqoji fikrin inkişafına düzgün istiqamət verməyə səy göstərir, maarifçiliyi təbliğ edirdilər. Azərbaycan pedaqoqları Təbriz maarifinə pedaqoji fikrimizin ayrılmaz hissəsi kimi baxır, ona təsir göstərmək məqsədi ilə müxtəlif qəzet və jurnallarda, o cümlədən «Azərbaycan məktəbi»ndə dəyərli və aktual məqalələr yazırdılar. «Azərbaycan məktəbi»ndə əlifbanın islah edilməsində, Cənubi Azərbaycanla pedaqoji əlaqə və münasibətlərin möhkəmlənməsində M.F.Axundovun böyük əməyi qeyd edilmişdir. Hələ XIX əsrdə İran və Osmanlı dövlətlərindən inkar cavabı alan M.F.Axundov Təbrizdə Mirzə Yusif Təbrizi, Məhəmməd Rəfi Təbrizi kimi həmfikir dostlar və qələm yoldaşlarını tapa bilmiş, onlarla məsləhətləşmişdi. 1870-ci ildə S.Ə.Şirvani Şamaxıda ilk Azərbaycan milli məktəbini təşkil edərkən çətinliklərlə üzləşəndə H.Zərdabinin təbrizli dostları onu da müdafiə etmişdir. Həmin dövrdə görkəmli maarifpərvər M.Yusif Təbrizi «Yek Kəlime» əsərinin titul səhifəsində «Yadigarlıq olaraq aliqədr dostum Həsən bəy Zərdabiyə təqdim olunur» sözünü yazıb kitabı Həsən bəy Zərdabiyə vermişdi.

1883-1895-ci illər arasında S.Ə.Şirvaninin «Rəbiül-ətfal» («Uşaqların baharı») adlı Azərbaycan dili dərsliyi məhz Təbrizdəki «Müzəffəriyyə» mətbəəsində çap edilmişdi. M.Ş.Vazehin «Xəmsə-ye ədəbiyyə» («Azərbaycan dilində beş cildlik kitab») adlı dərsliyi isə, Sadıq Təbrizi vasitəsilə yenidən işlənərək 1893-cü ildə Təbriz şəhərində çap olunmuşdu. Bağçasarayda çıxan «Tərcüman» qəzetinin redaktoru Qaspıralı (Qaspirinski) 1896-cı ildə Təbriz məktəblərinə dərs kitabları və yazı ləvazimatı göndərmişdi. Təbrizli Məsturə xanım Əfşar, Mirzə Əyyub Şəkiba, A.Abdullazadə (Fərivər) və bir çox başqaları orta və ali təhsillərini Bakıda və Tiflisdə aldıqdan sonra Təbrizə qayıtmışlar.

1919-cu ildə Cənubi Azərbaycanda başlanan milli-demokratik hərəkat zamanı Qafqazda yaşayan təbrizlilərin bəziləri Vətənə dönür və Təbrizdə «Cəmiyyət-e Əslah və tərəqqi-ye Azərbaycan», «Müəllimlər ittihadiyyəsi» cəmiyyətlərini yaratdılar. 1921-ci ildə Təbrizdə «Mədrəse-ye Şurəvi» adlı ixtisas məktəbi də fəaliyyət göstərmişdir.

1946-cı ildə işğalçıların Təbrizə divan tutması Azərbaycan ziyalıları üçün ağır zərbə oldu. Bu hadisələrdən sonra da Təbriz maarifinə, təhsilinə maraq soyumadı, əksinə, pedaqoji mətbuatda, ilk növbədə «Azərbaycan məktəbi»ndə Təbrizlə bağlı yazılar işıq üzü gördü: «Cənubi Azərbaycan şəhərlərində üsuli-cədid məktəblərinin təsisi tarixindən», «Azərbaycanda sovet hakimiyyətinin

yaradılması və onun İran mədəni-maarif həyatına təsiri», «Xalq müəllimi Mirzə Həsən Rüşdiyyə», «Doktor Tağı Eraninin təlim haqqındakı fikirlərinə dair», «Təbrizdə üsuli-cədid məktəblərinin təsisi tarixindən» və başqaları da bu qəbildəndir.

«Azərbaycan məktəbi»ndə «Üsuli-cədid» məktəblərindən bəhs ediləndə Təbriz təhsilinə dair məlumatlar da öz ifadəsini tapırdı [Şəmsi M. 1983, №1]. Bu məktəblərin açılması ilk növbədə, İranda üsuli-cədid məktəblərinin əsasını qoyan M.N.Rüşdiyyənin adı ilə bağlanırdı. Rüşdiyyə 1851-ci ildə Təbriz şəhərində anadan olmuşdur. O, fars və ərəb dillərini dövrünün tanınmış alimlərindən olan atasından öyrənmişdir. M.F.Axundovun dünyagörüşündə Mirzə Şəfinin bir məsləhəti həlledici rol oynadığı kimi, Rüşdiyyənin də həyatında «Əxtər» qəzetində yazılmış bir məqalə dönüş yaratmışdır. Məqalədə deyilirdi ki, Avropada hər min nəfərdən on nəfəri savadsız, İranda isə, hər min nəfərdən onu savadlıdır. Məqalədə Avropadakı məktəblərin zəruriliyindən danışılırdı. Bu məqalənin güclü təsiri onda Yaxın və Orta Şərqdə üsuli-cədid məktəblərinin təsisini və idarə etmək tərzini tətbiq etmək fikrini yaradır. Darülmüəllimin məktəbini qurtardıqdan sonra o, Qafqaza gəlmiş və burada qızğın pedaqoji fəaliyyətə qoşulmuşdur. Məlumdur ki, o illərdə Azərbaycanda K.D.Uşinskinin pedaqoji irsinə maraq çox böyük idi. Azərbaycan pedaqoqları A.N.Çernyayevski, R.P.Əfəndiyev, F.Köçərli özlərinin dərsliklərini yaradanda bu böyük pedaqoqun yolu ilə getmişlər.

Rüşdiyyəni ən çox cəlb edən cəhət təhsil, ana dilində tədris idi. O, bu məqsədlə İrəvana gedir və orada üsuli-cədid məktəbi təşkil edir, necə deyərlər, özünün bacarığını sınaqdan çıxarır. Böyük ideallarla yaşayan Rüşdiyyə 1887-ci ildə Təbrizə gəlir və şəhərin «Şeşgilan məhəlləsi»ndə «Dəbistan» adlı yeni tipli məktəb təsis edir. Bu məktəb az bir müddətdə elə şöhrət qazanır ki, şəhərin bir sıra mütərəqqi məktəbxana sahibləri bu yolu bəyənirlər. Rüşdiyyəni isə, qazandığı nailiyyətlər qane etmirdi. Köhnə məktəbdarların fikirlərindən qorunmaq üçün Rüşdiyyə fars dilindəki asan kitablarla tədris aparır. Bu zaman «Dəbistan»ı qarət edirlər. Lakin, Rüşdiyyə öz nəcib işini davam etdirməyi yenə də məqsədəuyğun sayır. O tez bir zamanda «Rüşdiyyə mədrəsəsi» adlı yeni bir məktəb təsis edərək öz işini davam etdirir, fitnələrdən isə can qurtara bilmir. Bu fitnələr vaxtı ölən, yaralananlar da olur. M.C.Pişəvəri yazır ki, «Rüşdiyyənin, ümumiyyətlə, təsis etdiyi məktəblər, mövhumatçılar tərəfindən 9 dəfə bağlansa da, o öz fikrindən əl çəkmirdi, yeni məktəbin yeni əlifba əsasında Azərbaycan dilində tədris işini davam etdirirdi» [Şəmsi M. 1976, №12].

«Dəbistan» və «Rüşdiyyə mədrəsəsi» adlı məktəblərin ləğv edilməsi Mirzə Həsən Rüşdiyyənin Təbrizi tərk etməsinə səbəb oldu, o, bir müddət Xorasanda, Misirdə, Qafqazda qaldı. Lakin, vətən həsrəti onu çox cəzb edirdi. Ona görə də 1893-cü ildə Təbrizə döndü, «Rüşdiyyəyi-milli» adlı üç sinifli məktəb açdı. Lakin bunlar XIX əsrin sonlarında Qafqazda görülən işlərlə ayaqlaşmırdı. Sadə bir

misal: «A.O.Çernyayevskinin xidmətləri yalnız təlim Azərbaycan dilində olan məktəblər açmaqla məhdudlaşmırdı. O bu cür məktəblər üçün dərsliklər yaratmaqda da öz gücünü sınamış və buna müvəffəqiyyətlə nail olmuşdur. Çernyayevski tərəfindən bu məqsədlə iki hissədən ibarət «Vətən dili» dərsliyi yazılmışdır. Bu, Şərq ölkələrində səs üsulu ilə tərtib olunan ilk dərsliklərdən biri idi» (N.Kazımov).

Rüşdiyyə Qafqaz səfərindən sonra açdığı məktəbdə Uşinski təliminə uyğun olaraq, ana dilinin tədrisini ön plana çəkirdi. «Azərbaycan məktəbi» onun Azərbaycan pedaqoji fikri ilə bağlılığını çox təfərrüatı ilə yazmışdır. Bir məqalədə deyilir: «O 1894-cü ildə Təbrizdə çıxan «Vətən dili» dərsliyindən məhz həmin məktəbdə istifadə edirdi». M.Tərbiyət yazırdı ki, Mirzə Həsən Rüşdiyyə «Vətən dili» adlı dərsliyi tərtib edərkən M.F.Axundovun yeni əlifba haqqındakı fikirlərindən istifadə etmiş və ibtidai məktəb şagirdləri üçün elə bir dərslik hazırlamışdır ki, indi də (1935-ci ildə) Azərbaycan məktəblərində ondan istifadə olunur (M.Tərbiyət, «Danışmandane Azərbaycan»). Buradan bir daha aydın olur ki, Mirzə Həsən Rüşdiyyənin pedaqoji görüşünün formalaşmasında Şimali Azərbaycan maarifpərvərlərinin, o cümlədən H.B.Zərdabinin də təsiri az deyildi. Məhz onun düzgün pedaqoji üsulu əsasında təşkil və idarə etdiyi «Rüşdiyyəyi-milli» məktəbi o qədər şöhrət qazandı ki, Təbrizdə fəaliyyət göstərən 300 məktəbxana sahiblərindən 100 nəfəri Rüşdiyyə metodu tətbiq etdi [Şəmsi M. 1976, №12]. Sonralar bu məktəb «Müəllimxana-ye Rüşdiyyə» adlandırılmışdır. Bu mötəbər məktəb Cənubi Azərbaycan maarifi tarixində də əhəmiyyətli rol oynamışdır [Yəqubi Ə. 1967]. Rüşdiyyənin məktəbləri yalnız məzmunca deyil, forma etibarı ilə də üsuli-cədid məktəbləri idi. «Rüşdiyyə-ye milli» məktəbində dərs proqramına müvafiq fars, ərəb, Azərbaycan dili tədris olunurdu. Sonralar belə məktəblərin də sayı getdikcə artırdı. Bu məktəblərin sonrakı fəaliyyəti də təsirsiz qalmamışdı. Bu vəziyyətlə barışmayanlar çox idi. «Kəmaliyyə», «Tərbiyyət» məktəblərinin acı taleyi də maarifçiləri düşündürürdü.

Tədqiqatçılar tərəfindən Mirzə Həsən Rüşdiyyə, Məhəmmədhüseyn Şəhriyar və digər maarifçilərin pedaqoji ideyaları gənc nəslə çatdırıldı.

Cənubi Azərbaycan xalqı nəinki yalnız üsuli-cədid məktəblərinin təhsil və maarifinin inkişafı prosesini təşkil edir, həm də kitab və qəzet nəşri işində də birinci yeri tuturdu.

«Azərbaycan məktəbi»ndə deyildiyi kimi, Ərdəbildəki «Nasiriyyə», «Cəfəriyyə» məktəbləri də çətinliklərlə üzləşirdi. Milli hərəkatın gedişində təsis olunan «Xeyriyyə», «Cəlaliyyə», «Sadat», «Tofiq», «Rəfəqi» və b. adlar altında fəaliyyət göstərən üsuli-cədid məktəbləri də mütərəqqi məktəblər sayılırdı.

Beləliklə, «Azərbaycan məktəbi»ndə Cənubi Azərbaycanla, Təbriz tarixi ilə bağlı məqalələr Cənubda pedaqoji fikrin inkişafı yollarına dair müəyyən təsəvvür yaradırdı.

Qeyd etmək lazımdır ki, M.H.Rüşdiyyənin Zaqafqaziyada qarşılaşdığı mühit

onun dünyagörüşünün mütərəqqi istiqamətdə inkişaf etməsinə, həmçinin Rüşdiyyənin görkəmli pedaqoq və məktəb islahatçısı kimi yetişməsinə böyük təsir göstərmişdir. Rüşdiyyənin «Vətən dili» dərsliyi A.O.Çernyayevskinin «Vətən dili» dərsliyindən sonra ikinci yeri tuturdu. Maraqlıdır ki, Çernyayevski kimi, Rüşdiyyə də əlifba tədrisinin metodikası üzrə xüsusi vəsait hazırlamışdır.

XIX əsrin axırlarında Rüşdiyyə kimi, Cənubi Azərbaycanın bir sıra müəllim və maarifpərvər xadimlərinin, o cümlədən M.K.Əsgərzadə, Axund Mirzə Əli, Seyid Rza Əlizadənin inkişafında Zaqafqaziyanın qabaqcıl məktəb və metodistlərinin rolu az olmamışdır. İraqda ilk yeni məktəblərin təsis edilməsi tarixindən danışanda «Rüşdiyyə məktəbi» Tehranda açılan ilk yeni məktəb kimi qələmə alınır. Cənublu pedaqoqlar Zaqafqaziyadakı yeni tipli məktəblərin fəaliyyətini izləyir və onlarla təcrübə mübadiləsi aparırdılar.

«Azərbaycan məktəbi»ndə «Doktor Tağı Eraninin təlim haqqında fikirlərinə dair» çox dəyərli, nəzəri bir məqalə də dərc olunmuşdu. Məqalədə doktor Erani haqqındakı məlumat da maraqlıdır. Doktor Erani 1902-ci il sentyabrın 5-də Təbriz şəhərində anadan olmuşdur. O, 1940-cı ildə Tehran zindanında İran polisi tərəfindən öldürülmüşdür. Erani 1927-ci ildə Berlində «Psixologiya» dərsliyini başa çatdırmışdır. O burada Şopenhauer, Toridayk, Stenli Holl və başqa mütəfəkkirlər haqqında danışmış, onların baxışlarını hakim ideologiyanın tələbləri dairəsində şərh etmişdir. Erani didaktikanın qanunlarına da şərh vermiş, İranın klassik pedaqoq və mütəfəkkirlərinin görüşlərini təhlil etmiş, XX əsrin birinci yarısında Nəbəxt, doktor Sadiq, doktor Siyasi, doktor Huşlyar kimi pedaqoq və psixoloqların əsərlərinin adını çəkmiş, əqli tərbiyə və onun inkişafı məsələsinə öz münasibətini bildirmişdir. Təlim işinin yaxşı təşkil edilməsi ilə əlaqədar olaraq Erani bir sıra təlim proseslərindən də danışmışdır.

Məqalə müəllifi Ə.Yaqubi ümumiləşdirici fikirlərlə Eraninin pedaqoji görüşlərini şərh etmişdir: «Doktor Erani təlimin mahiyyəti prinsipləri, məzmunu, üsulları, dərs vəsaitləri və ibtidai təlim məsələləri ilə əlaqədar olaraq, təlim nəzəriyyəsinin bir sıra mühüm məsələlərini elmi cəhətdən düzgün izah edə bilmiş, ümumiyyətlə, didaktika məsələlərinə düzgün yanaşmağa səy etmişdir».

Xatırladırıq ki, məqalənin müəllifi Ə.Yəqubi Ə.Seyidovun elmi rəhbərliyi ilə «Doktor Tağı Əraninin təlim-tərbiyə haqqında fikirlərinə dair» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Dissertasiyada Təbriz maarifçiliyinə dair çoxlu faktlar verilmişdir.

Ədəbiyyatımız tarixində öz yeri olan Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir, Mədinə Gülgün, Hökumə Billuri kimi cənublu şairlərin yaradıcılığındakı tərbiyəvi fikirlər «Azərbaycan dili və ədəbiyyatı tədrisi», «Azərbaycan məktəbi» jurnallarında pedaqoji fikrin istiqamətləndirilməsində az rol oynamamışdır.

## Nəticə

Beləliklə, Azərbaycanda pedaqoji fikrin inkişafında müəyyən rolu olan Təbriz maarifi haqqında dəyərli məqalələr pedaqoji jurnallarımızda ardıcıl çap edilmişdir. Klassik pedaqoqların əsərlərindəki tərbiyəvi fikirlərdə Təbriz maarifi xatırlanmış, onun gələcəyinə ümidlə yanaşılmışdır. Bu məqalələr bir daha göstərir ki, Azərbaycan xalqının elm və maarif xadimlərini Azərbaycanın Cənub və Şimal ərazilərinin taleyi eyni dərəcədə düşündürmüşdür.

## İstifadə edilmiş ədəbiyyat

1. Ağamalı K. (1967). Cənubi Azərbaycan maarifi. Azərbaycan məktəbi, №3.
2. Yaqubi Ə. (1959). Doktor Tağı Eraninin təlim haqqında fikirləri. Azərbaycan məktəbi, 1959, №9.
3. Əhmədov H. (2001). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı.
4. Mehdizadə M. (1958). Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr. Bakı.
5. Məmmədova E. (2018). «Azərbaycan məktəbi» jurnalında Cənubi Azərbaycan təhsili məsələləri. Naxçıvan Müəllimlər İnstitutunun əsərləri, №1.
6. Rüstəmov F. (2006). Azərbaycan pedaqogikaşünaslığı. Bakı, Elm və Təhsil.
7. Rüstəmov F. (2010). Pedaqogika tarixi. Bakı, Elm və Təhsil, 752 s.
8. Şəmsi M. (1976). Xalq müəllimi Mirzə Həsən Rüşdiyyə. Azərbaycan məktəbi, №12.
9. Şəmsi M. (1983). Təbrizdə üsuli-cədid məktəblərinin təsisi tarixindən. Azərbaycan məktəbi, №1.
10. Şəmsi M. (1988). Cənubi Azərbaycan şəhərlərində üsuli-cədid məktəblərinin təsisi tarixindən. Azərbaycan məktəbi, №1.
11. Seyidov Ə. (1968). Pedaqogika tarixi. Bakı, Maarif.
12. Seyidov F. (2003). Dədə Qorquddan Şəhriyara qədər: Güney Azərbaycanda pedaqoji fikir. Bakı.
13. Yəqubi Ə. (1967). Zaqafqaziya yeni məktəb hərəkatının Cənubi Azərbaycan xalq maarifinin inkişafına təsiri. Azərbaycan məktəbi, №9.
14. Yəqubi R. (1988). Cənubi Azərbaycanda qadın təhsili tarixindən. Azərbaycan məktəbi, №11.
15. Анталогия педагогической мысли Азербайджанской ССР. (1989). Москва.